UOT: 338.47:656.02; **JEL**: R10; E22; Q14; R51; P33

Asif Rəşad oğlu NİFTƏLİYEV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,
E-mail: asif-niftaliev@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.003.012

ÖLKƏ REGİONLARINDA MALİYYƏ-İNVESTİSİYA MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ NƏZƏRİ YANAŞMALAR

Xülasə

Tədqiqatın məqsədi ölkə regionlarında maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsinə nəzəri yanaşmaların müəyyənləşdirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası kimi, elmi abstraksiya, müqayisəli təhlil və ümumiləşdirmə metodlarına daha çox yer verilmişdir. Eyni zamanda, regionlarda maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsi üzrə aparılan müxtəlif tədqiqatlara və onların müəlliflərinə müraciət olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti dedikdə, müasir dövrdə ölkə regionlarında maliyyə-investisiya mexanizmlərinin nəzəri yanaşmalarından çıxış etməklə, daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanması anlama gəlir.

Tədqiqatın nəticələri baxımından, müasir transformasiyalar şəraitində məqalədə əldə olunmuş nəticələrdən ölkə regionlarında maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsi tədbirlərinin görülməsi nəzərdə tutulur.

Tədqiqatın orijinallığı və elmi yeniliyi əsas etibarı ilə yeni çağırışlar baxımından ölkə regionlarında maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsinin zəruriliyinin əsaslandırılmasıdır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və bu proseslərdə maliyyə-investisiya mexanizmlərinin maksimum təkmilləşdirilməsi məqsədilə, sistemli araşdırmalar aparılmış, problemlər müəyyənləşdirilmiş və onların həlli yolları üzrə əsaslandırılmış, elmi arqumentlərə söykənmiş bir sıra təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, regionlar, regional inkişaf, maliyyə, investisiya, maliyyə-investisiya mexanizmləri, maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə-investisiya mexanizmlərinin nəzəri əsasları, regionların inkişaf problemləri.

Giriş

Maliyyə fəaliyyəti maddi istehsalın inkişafı və cəmiyyətin ehtiyaclarının ödənilməsi üçün iqtisadi tələbatı müəyyənləşdirən iqtisadi qanunlarla tənzimlənir. Təcrübədə iqtisadi modernləşmə şəraitində maliyyə fəaliyyətini idarə etməyə imkan verən maliyyə mexanizminin rolu xüsusi önəm daşıyır. Maliyyə mexanizmi sosial-iqtisadi prosesin səmərəli reallaşdırılmasına kömək edən və maliyyə alətləri və inkişaf vasitələrindən istifadəyə əsaslanan mexanizmin xüsusi halıdır. Maliyyə mexanizmi kateqoriyasının özünün mahiyyətini dərk etmədən, onun bütün komponentlərinin məzmununu və ümumi xüsusiyyətlərini bilmədən, heç bir idarəetmə subyekti məqsədə nail olmağa kömək edəcək effektiv tədbirlər kompleksi hazırlaya bilməz. Bu gün istehsal fondlarına, əsas vəsaitlər formasında əqli mülkiyyətə, əhəmiyyətli insan resurslarına və inkişaf strategiyasına malik olan regional iqtisadiyyat maliyyə mexanizminin dünya prinsiplərinə uyğun təşkilini tələb edir. Məlumdur ki, müasir dövrdə təcili həllini tələb edən aktual məsələ regional potensialın müəyyənləşdirilməsi, bu potensialdan istifadə üçün effektiv maliyyə alətlərinin tətbiqi, iqtisadi təsirin maksimuma çatdırılması və regionun davamlı inkişafına gətirib çıxaracağı gözlənilən regional sosial-iqtisadi ehtiyacların ödənilməsidir. Açıq iqtisadiyyat şəraitində regionların dinamik inkişafı prioritetlər sistemini müəyyənləşdirmədən və onun ərazisində yerləşən dövlət orqanlarının, müəssisə və təşkilatların, əhalinin və maliyyə institutlarının fəaliyyətlərinin ardıcıllığını təmin etmədən mümkün deyil. Yuxarıda göstərilən sosial-iqtisadi inkişaf məsələlərinin həlli davamlı regional

inkişafın maliyyə mexanizminin yaradılması strategiyasının təkmilləşdirilməsini tələb edir. Komponentlər arasında regional inkişafın maliyyə mexanizminin gücləndirilməsi strategiyası əsas yer tutur ki, bu da ilk öncə, onun fəaliyyəti və inkişafı üçün maliyyə dəstəyinin vacibliyi ilə bağlıdır. Regional inkişafın maliyyə mexanizminin gücləndirilməsi strategiyası regional məqsədlərə nail olmaq mexanizmindən ən rasional, optimal və səmərəli istifadəni təmin edən maliyyə sisteminin inkişafı modelidir. Bu strategiya dövlətin balanslaşdırılmış maliyyə siyasətinin reallaşdırılması üçün əsas vasitələrdən biridir.

Regional səviyyədə maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsi proseslərinin tədqiqi

Regional inkişafın maliyyə mexanizminin gücləndirilməsi strategiyasını reallaşdırarkən regional sosial-iqtisadi inkişaf məqsədlərinə nail olmaq üçün tədbirlərin hazırlanması məqsədilə strateji təhlilin aparılması, xarici və daxili amillərin hərtərəfli öyrənilməsi və onların təsirinin müəyyənləşdirilməsi böyük önəm daşıyır. Regional inkişafın maliyyə mexanizminin formalaşdırılması üzrə bütün strategiyalar üçün ümumi olan regionların maliyyə sabitliyinin bərpasına, maliyyə axınının intensivləşdirilməsinə və gələcək inkişafın təmin edilməsinə yönəlmiş tədbirlərdir. Prioritet vəzifələrə regionun öz maliyyə mexanizminin yaradılması, büdcələrarası münasibətlərin optimallaşdırılması, müəssisə və təşkilatların işgüzar fəaliyyətinin, habelə özünüməşğulluğun stimullaşdırılması, regional inkişaf üçün investisiya resurslarının cəlb edilməsinə yardım və digərləri daxildir. Seçim birbaşa regionun maliyyə mexanizminin səviyyəsindən asılıdır və onun maliyyə sisteminin işləməsi üçün optimal istiqamətləri təmsil edir [3, s.9]. Regionların maliyyə mexanizmi müxtəlif elementlərdən ibarətdir ki, bunlardan biri maliyyə-investisiya mexanizmidir ki, həmin mexanizm iqtisadi sistem daxilində müvafiq maliyyə və investisiya siyasətini tətbiq etmək və reallaşdırmaq məqsədilə dəyər münasibətlərini, dəyərin hərəkət prosesini və istiqamətini tənzimləmək üçün bir-biri ilə əlaqəli metodlar sistemidir. Regionlar arasında investisiya axınını təmin edən bir vasitə kimi maliyyə-investisiya mexanizminin mahiyyətinin araşdırılması XX əsrin sonlarında daha geniş tədqiqat obyektinə çevrilmişdir. Demək olar ki, heç bir elmi ədəbiyyatda “maliyyə-investisiya mexanizmi” anlayışının mahiyyətini ortaya qoyan vahid yanaşma yoxdur. Regionların təsərrüfat mexanizminin tərkib hissəsi kimi bu mexanizmi vahid idarəetmə mexanizmindən kənarda təsəvvür edə bilmərik [8, s.61].

Qeyd edək ki, maliyyə-investisiya mexanizmi bütün təsərrüfat subyektlərinin pul fondlarının formalaşmasına və onlardan kredit və ya investisiya şəklində istifadəsinə cavabdeh olan maliyyə mexanizminin tərkib hissəsidir. Təsərrüfat subyektlərinin maliyyə-investisiya mexanizmi onların təsərrüfat mexanizminin tərkib hissəsi, müəssisədə baş verən maliyyə-investisiya münasibətlərini və digər iqtisadi prosesləri tənzimləyən maliyyələşdirmə və investisiyalaşdırma alət və vasitələrinin, metod və üsullarının məcmusudur. Təsərrüfat subyektlərinin maliyyə-investisiya mexanizminin qurulması obyektiv iqtisadi qanunların tələblərinə cavab verir. Habelə, o, subyektiv xarakter daşıyır, çünki onun əsasları müəyyən inkişaf mərhələsində üzləşdiyi problemləri həll etmək məqsədilə dövlət tərəfindən qoyulur. Belə bir mexanizmin səmərəli işləməsi yalnız müvafiq təşkilati, informasiya və hüquqi təminatı olan effektiv idarəetmə sistemi olduqda mümkündür [6, s.126]. Aydındır ki, maliyyə təkcə iqtisadi kateqoriya deyil, habelə istehsal və ticarət prosesinə təsir vasitəsidir. Bu təsir maliyyə siyasətini reallaşdırmaq vasitəsilə istifadə olunan maliyyə mexanizminin köməyilə reallaşdırılır. Maddi istehsal sferasında maliyyənin aparıcı rolu onu göstərir ki, təsərrüfat subyektlərinin maliyyə mexanizmi onların təsərrüfat mexanizminin tərkib və mərkəzi hissəsidir. O, maliyyənin iqtisadi prosesə təsiri vasitəsidir və ona görə deyə bilərik ki, maliyyə mexanizmi maliyyə ilə eyni funksiyaları yerinə yetirir [5, s.451]. Elmi ədəbiyyatda qlobal miqyasda maliyyə mexanizminin məzmununu açıqlamaq üçün iki konseptual yanaşmanı ayırmaq olar. Birinci yanaşmaya görə, maliyyə mexanizmi dedikdə, müəssisələrin öz maliyyəsinin fəaliyyət göstərməsi başa düşülür. Maliyyə münasibətlərinin maddi təzahürü pul vəsaitlərinin hərəkətidir. Bu axınların təşkili, onların reallaşdırılması qaydası maliyyə texnikasını xarakterizə edən müəyyən qaydalara və istiqamətlərə əsasən baş verir. Maliyyə mexanizminin müəyyənləşdirilməsinə ikinci yanaşma

ondan ibarətdir ki, o, iqtisadiyyatın vəziyyətinə və inkişafına təsir göstərən metod və üsulların, alət və vasitələrin məcmusu kimi başa düşülür. Bu yanaşma maliyyəni idarəetmə aparatının təsərrüfat subyektlərinin iqtisadi vəziyyətinə təsirinin həlledici amili kimi xarakterizə edir və maliyyə fəaliyyətinin xarici təsirini əks etdirir [7, s.213].

Təsərrüfat subyektlərinin maliyyə mexanizminin köməyi ilə müəssisə daxilində, digər təşkilat və müəssisələrlə, maliyyə-kredit sistemi, sığorta, investisiya təşkilatları və s. ilə müəyyən münasibətlər təmin edilir [4]. Maliyyə mexanizminin tərkib hissələrinə aşağıdakılar daxildir: maliyyə dəstəyi (o cümlədən özünümaliyyələşdirmə, investisiyalaşdırma, kreditləşdirmə), maliyyə tənzimlənməsi (vergi, kredit, depozit, subsidiya) və bunu mümkün edən maliyyə alətləri və göstəricilər sistemi. Ümumiləşdirsək deyə bilərik ki, maliyyə resurslarının bölüşdürülməsində maliyyə mexanizmi böyük rol oynayır. Beləliklə, maliyyə mexanizmi təsərrüfat subyektlərinin özünü zəruri vəsaitlərlə təmin etdiyi, normal sabitlik və likvidlik səviyyəsinə çatdığı, rentabelliyi təmin etdiyi və maksimum mənfəət əldə etdiyi maliyyə idarəetmə sistemi, forma və üsulların məcmusudur. Təsərrüfat subyektlərinin maliyyə mexanizminin səmərəli işi onun təkmilləşdirilməsi səviyyəsindən asılıdır. Odur ki, maliyyə mexanizminin təkmilləşdirilməsi zəruridir ki, bunun da əsas istiqamətləri ola bilər:

- fəaliyyətin davamlı, sistemli maliyyə təhlili;
- təsərrüfat subyektlərinin dəyişən və sabit xərclərinin, gəlir və mənfəətin monitorinqi, onların qarşılıqlı əlaqəsinin təhlili;
- mənfəətdən rasional istifadə və daha səmərəli dividend siyasətinin seçilməsi;
- təsərrüfat subyektinin strateji maliyyə siyasətinin hazırlanması və reallaşdırılması;
- əmlakın tərkibinin və onun formalaşma mənbələrinin optimallaşdırılması;
- dövriyyə vəsaitlərinin mövcud tələblərə uyğun təşkili yolu ilə maliyyə vəziyyətinin optimallaşdırılması;
- müəssisənin inkişafı məqsədilə lizinq münasibətlərindən daha geniş istifadə edilməsi.

Beləliklə, təsərrüfat subyektlərinin maliyyə mexanizmi onların maliyyə fəaliyyətinin səmərəli reallaşdırılmasına, onun funksiyalarına və qarşılıqlı əlaqəsinə kömək edir. Bu mexanizmin təkmilləşdirilməsi maliyyə fəaliyyətinin davamlı təhlili, bütün ödənişlərin vaxtında aparılması, banklarla əlaqələrin təşkili, fəhlə və qulluqçular üzrə ödənişlərin vaxtında və düzgün aparılması, habelə dövriyyə kapitalı normalarına riayət olunmasına nəzarət etməklə mümkündür. Təsərrüfat subyektlərinin maliyyə mexanizminin təkmilləşdirilməsi təkcə özünün deyil, yerləşdiyi regionun maliyyə-investisiya mexanizminin səmərəli işləməsinə önəmli dərəcədə təsir edir. Maliyyə-investisiya mexanizmi çoxsəviyyəli və çox mürəkkəb elementlər sistemidir, burada əsas rolu regionda maliyyə və investisiya resurslarının formalaşması, istifadəsi və yenidən bölüşdürülməsi alətləri oynayır. Onların kəmiyyət və keyfiyyət xüsusiyyətləri ümumi regional maliyyə-investisiya potensialında əks olunur.

Regionun maliyyə-nvestisiya potensialı kifayət qədər yeni anlayışdır, onun mahiyyəti bir-biri ilə əlaqəli üç xassənin vəhdətindədir: ərazinin daxili resurslarını və ehtiyatlarını istehsal və səfərbər etmək bacarığı; xaricdən maliyyə, kredit və investisiya resurslarını toplamaq və cəlb etmək bacarığı; resursları və əmanətləri investisiyalara çevirmək bacarığı. Bütövlükdə maliyyə-investisiya potensialı regionda mövcud olan bütün istehsal amillərinin və kapitalın tətbiq olunduğu sahələrinin məcmusu kimi başa düşülə bilər. Dar mənada bu potensial regionların istehsal amilləri (əsas vəsaitlər, əmək, təbii ehtiyatlar, infrastruktur və s.) ilə doymasını, əhalinin istehlak tələbatını və ümumilikdə ölkənin əsas makroiqtisadi aspektlərini nəzərə alan kəmiyyət xarakteristikasıdır [10, s.7].

Regionlarda maliyyə-investisiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri

Regionun maliyyə-investisiya potensialının iqtisadi komponenti geniş təkrar istehsalı və sosial problemlərin həllini təmin etməkdən ötrü nəzərdə tutulmuşdur ki, bu da yalnız onun bütün elementlərinin qarşılıqlı əlaqəsi və aktiv işləməsi şəraitində mümkündür. Habelə, regionun həmin potensialının iqtisadi tərkib hissəsinin artması, bir tərəfdən, onun öz iqtisadi potensialı (istehsal, əmək, infrastruktur, təbii resurs potensialı), digər tərəfdən, dövlətin iqtisadi potensialı ilə

müəyyənləşdirilir. Maliyyə-investisiya potensialının iqtisadi komponenti nə qədər az inkişaf edərsə, region digər regionlarla iqtisadi qarşılıqlı əlaqə prosesindən və xarici resurslardan bir o qədər asılı olur. Resurs komponenti regionun maliyyə resurslarının məcmusudur və həmin komponentin artırılmasının əsas vəzifəsi zəmanətli maliyyələşdirmə mənbələrindən müəyyənləşdirilmiş müddətdə lazımi miqdarda maliyyə resurslarının vaxtında və tam təmin edilməsindən ibarətdir. Sosial komponenti yerli əhali üçün ən əlverişli yaşayış şəraitini təmin etmək məqsədilə malik olduğu imkanlar toplusudur. Sosial komponenti iki resurs blokuna bölmək olar: insan resursları və regionun sosial infrastrukturu. Fərd nöqteyi-nəzərdən insan resursları hər bir insanın bilik, bacarıq və motivasiya ehtiyatları ilə müəyyənləşdirilir. Sosial infrastruktur müxtəlif xidmətlərin göstərilməsi yolu ilə insanın şəxsi və sosial ehtiyaclarının reallaşdırılması prosesində onun kompleks təkrar istehsalına kömək edən fəaliyyət sahələrinin məcmusudur. Bu komponentin maliyyə-investisiya potensialının strukturunda önəmliliyinin artması bilik iqtisadiyyatının və cəmiyyətin inkişaf prosesləri ilə əlaqədardır.

Maliyyə-investisiya potensialının iqtisadi, resurs və sosial komponentləri arasındakı əlaqə onların optimal nisbətinin təcrübədə aşkarlanması zərurətini müəyyənləşdirir. Bu komponentlərin birində dəyişiklik ya ondan gələn gəlirin azalmasına, ya da digər komponentlərin fəaliyyətinin səmərəliliyinin azalmasına səbəb olur, çünki onların hamısı bütöv sistem təşkil edir. Regionun maliyyə-investisiya potensialının həcminə təsir göstərən əsas alətlərə daxildir:

- potensialın müxtəlif maliyyələşdirmə mənbələrinin təşkili yolu ilə gücləndirilməsi;
- maliyyə-investisiya infrastrukturu institutlarının formalaşdırılması;
- maliyyə-investisiya resurslarının cəlb edilməsi məqsədilə regional bazarların fəaliyyətinin aktivləşdirilməsi.

Regionun maliyyə-investisiya potensialından səmərəli istifadə mövcud istehsalların genişləndirilməsi, yeni müəssisələrin yaradılması və inkişafı, habelə regional büdcənin artırılması üçün zəruri şərtdir. Tədqiq olunan potensial maliyyə-investisiya resurslarının mövcudluğu və həmin resurslardan səmərəli istifadə etmək qabiliyyəti ilə ölçülür. Bu baxımdan maliyyə-investisiya potensialının tədqiqi regionun iqtisadi resursları ilə təminat səviyyəsini, habelə bu resursların iqtisadi dövriyyəyə cəlb edilməsinin mövcud vəziyyətini, onlardan istifadə imkanlarını və artırılması zərurətini müəyyənləşdirməyə imkan verir [2, s.5]. Regionun maliyyə-investisiya potensialı inkişaf etmiş infrastrukturun və şaxələndirilmiş iqtisadiyyatın formalaşdırılmasına yönəlmiş investisiya fəaliyyətini reallaşdırmaq məqsədilə lazımi miqdarda və həcmdə maliyyə-investisiya resursları toplamağa imkan verən potensial imkanları təmsil edir. Fərqli maliyyə-investisiya resurslarının birləşdirilməsi və onların regional iqtisadiyyatın transformasiyası baxımından investisiya proqramlarına yönəldilməsi həmin potensialın idarə edilməsi zərurətini müəyyənləşdirir.


Regionlarda daim müxtəlif iqtisadi proseslər müşahidə edilir ki, bu da maliyyə idarəçiliyi sahəsində dəyişiklikləri tələb edir. Belə bir şəraitdə regional səviyyədə maliyyə axınlarının səmərəli idarə edilməsinin rolu önəmli dərəcədə artır. Regionun özünüinkişafının prioritetlərindən biri, ilk öncə, daha yüksək büdcədən maliyyə yardımı almaqdansa, öz resurs imkanları hesabına sosial-iqtisadi fərqliliyin aradan qaldırılmasıdır. Bu baxımdan regionun inkişafının davamlılığının təmin edilməsi məqsədilə onun maliyyə-investisiya potensialının səmərəli idarə olunmasının rolu artır [9, s.84].

Regionun maliyyə-investisiya potensialının səmərəli şəkildə idarə edilməsi onun inkişafının davamlılığının təmin edilməsi baxımından önəmlidir. Regionun maliyyə-investisiya potensialının formalaşdırılması və onun inkişafının davamlılığının təmin edilməsi məqsədilə maliyyə və investisiya resurslarının cəlb edilməsi və səmərəli istifadəsi prioritet vəzifələrdən hesab olunur.

Maliyyə axınlarının reginun inkişafının davamlılığının təmin edilməsi nöqteyi-nəzərindən idarə edilməsinin səmərəliliyi kompleks və sistemli yanaşmalarla müəyyənləşdirilir (şəkil 1).

Ümumiyyətlə, regionun inkişafı məqsədilə maliyyə-investisiya potensialının optimallaşdırılması modeli formalaşdırılmalı və həmin model aşağıdakı istiqamətləri əhatə etməlidir.

1. Təşkilati tədbirlərin reallaşdırılması yolu ilə regionun maliyyə-investisiya potensialının gücləndirilməsi.



Şəkil 1. Regionun maliyyə-investisiya potensialının idarə edilməsi
Mənbə: *müəllif yanaşması*

2. Regionun maliyyə-investisiya potensialının inkişaf səviyyəsinə təsir edə bilən amillər kompleksinin müəyyənləşdirilməsi və sistemləşdirilməsi. Bu amillər qruplarının təsiri regionun iqtisadi inkişaf vektorunun hərəkət istiqamətini dəyişə bilər.

3. Müxtəlif amillərin maliyyə-investisiya potensialının səviyyəsinə təsir dərəcəsinin qiymətləndirilməsi. Bu zaman resurs çatışmazlığı və ya artıqlığının yaranmasına səbəb olan mümkün vəziyyətlərin, mümkün kəsir və ya artıqlığın miqyasının kəmiyyət qiymətləndirilməsi aparılır.

4. Problemli sahələrin müəyyənləşdirilməsi yolu ilə resurs itkilərinin tam və ya qismən aradan qaldırılması.

5. Təsadüfi amillərin təsiri nəticəsində yaranan itkilərin minimuma endirilməsi. Maliyyə-investisiya potensialının optimal səviyyəsinə o halda nail oluna bilər ki, itki gözləntiləri minimum olsun, regionun resurs bazası maksimum istifadə edilsin ki, bu da onun gələcək iqtisadi inkişafını təmin edər.

Göründüyü kimi, müasir dövrdə regionlarda vaxtlı-vaxtında və zəruri maliyyə-investisiya mexanizminin formalaşdırılması və maliyyə resurslarından səmərəli istifadəsi onların davamlı inkişafının önəmli şərtidir. Odur ki, regionların istehsal və xidmət sahələrinin maliyyə təminatının yaxşılaşdırılması və bu sahələrdə maliyyə resurslarından səmərəli istifadə edilməsi həmişə regional sosial-iqtisadi inkişafın təxirəsalınmaz vəzifələrindən olmuşdur [1, s.3].

Nəticə

Bütün bunlara əsaslanaraq regionun inkişafı üçün maliyyə-investisiya mexanizminin təkmilləşdirilməsini zəruri hesab edirik. Regional maliyyə-investisiya mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri kimi qeyd etmək olar:

- ✓ maliyyə-investisiya idarəçiliyi üçün müvafiq normativ-metodoloji bazanın hazırlanması;
- ✓ regionun investisiyalaşdırılması səviyyəsinin yüksəldilməsi;
- ✓ regionun əmlakının idarə edilməsinin keyfiyyətinin yüksəldilməsi;
- ✓ regional büdcənin planlaşdırılmasının, proqnozlaşdırılmasının və icrasının keyfiyyətinin yüksəldilməsi;
- ✓ büdcə və investisiya xərclərinin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi;

- ✓ büdcə və investisiya risklərinin qiymətləndirilməsi sisteminin formalaşdırılması;
- ✓ statistik vergi məlumat bazasının yaradılması;
- ✓ maliyyə-investisiya idarəçiliyinin şəffaflığının və açıqlığının artırılması.

Maliyyə-investisiya mexanziminin təkmilləşdirilməsinin qeyd olunan bu və ya digər istiqamətləri regionlarda yeni iş yerlərinin yaradılmasına, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılmasına, yerli büdcələrin doldurulmasına, ÜDM-in artımına töhfə verməklə təkcə regionun deyil, bütövlükdə ölkənin inkişafının davamlılığına təkan verə bilər.

ƏDƏBİYYAT

1. Quliyeva, A.E. Azərbaycan Respublikasının regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemləri. İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dis. avtoreferatı./ – Bakı, 2018. – 49 s.
2. Mahmudova, L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri. Audit – 2019. № 4, Cild 26, – s.24-36.
3. Антонец, В.Г. Стратегия формирования финансового механизма регионального развития / В.Г. Антонец // Донецкие чтения 2021: образование, наука, инновации, культура и вызовы современности: Материалы VI Международной научной конференции, – Донецк, – 26–27 октября 2021, – с. 8-10.
4. Бикинеева, Р.Р. Финансово-инвестиционный потенциал региона / Р. Р. Бикинеева // Международный экономический форум “Экономика в меняющемся мире”: Сборник научных статей II Международного экономического форума, – Казань, – 24–27 апреля 2018 года. – Казань: Академия наук Республики Татарстан, – 2018. – с. 76-78.
5. Воротилова, О.А. Особенности финансового механизма предприятия в рыночных условиях / О.А. Воротилова, В.В. Пугачева, М.Ш. Рахматов // Актуальные вопросы современной экономики. – 2020. № 9, – с. 450-454.
6. Павлова, М.В. Финансовый механизм предприятия: содержание и основные компоненты / М.В. Павлова // Вестник Донецкого национального университета. Серия В. Экономика и право. – 2020. № 1, – с. 123-128.
7. Петрушевская, В.В. Системный взгляд на экономическое содержание категории “финансовый механизм” / В.В. Петрушевская, Н.А. Броварь // Стратегии бизнеса. – 2020. – Т. 8, № 8, – с. 212-218.
8. Продан, В.В. Сущность финансово-инвестиционного механизма / В.В. Продан // Российский академический журнал. – 2014. – Т. 27, № 1, – с. 61-63.
9. Соболева, О.Н. Концептуальные основы управления финансово-инвестиционным потенциалом региона в контексте устойчивого развития / О.Н. Соболева, П.В. Токарева // Вестник Тверского государственного университета. Серия: Экономика и управление. – 2023. № 1(61), – с. 84-92.
10. Федоткина О.П. Финансово-инвестиционный потенциал региона в контексте устойчивого развития// Региональная экономика и управлени. Электронный научный журнал. - 2014. №3 (39), – с.1-14.

Асиф Рашад оглы Нифталиев
Докторант Азербайджанского Университета Кооперации,
E-mail: asif-niftaliev@mail.ru

Теоретические подходы к совершенствованию финансово-инвестиционных механизмов в регионах страны

Резюме

Цель исследования – определение теоретических подходов к совершенствованию финансово-инвестиционных механизмов в регионах страны.

Методологии исследования – наибольшее внимание уделяется таким методам как научная абстракция, сравнительный анализ и методы обобщения. При этом были рассмотрены различные исследования, проводимые по вопросам совершенствования финансово-инвестиционных механизмов в регионах.

Прикладная значимость исследования означает разработку более эффективных финансовых и инвестиционных механизмов в регионах страны в современное время.

Результаты исследования - в условиях современных преобразований на основе полученных в статье результатов предусмотрено принятие мер по совершенствованию финансово-инвестиционных механизмов в регионах страны.

Оригинальность и научная новизна исследования - являются обоснованием необходимости совершенствования финансово-инвестиционных механизмов в регионах страны в условиях новых вызовов. При этом в целях ускорения социально-экономического развития регионов и максимального совершенствования финансово-инвестиционных механизмов в этих процессах были проведены системные исследования, выявлены проблемы и выдвинут ряд предложений, основанных на научной аргументации.

Ключевые слова: Азербайджан, регионы, региональное развитие, финансы, инвестиции, финансово-инвестиционные механизмы, совершенствование финансово-инвестиционных механизмов, теоретические основы финансово-инвестиционных механизмов, проблемы развития регионов.

Asif Rashad Niftaliyev
doctoral student of Azerbaijan Cooperation University,
AZ1124, Azerbaijan Republic, Baku, N.Narimanov street 93
E-mail: asif-niftaliev@mail.ru

Theoretical approaches to improving financial and investment mechanisms in the regions of the country

Summary

The purpose of the study is to determine theoretical approaches to improving financial and investment mechanisms in the regions of the country.

Research methodology - the greatest attention is paid to such methods as scientific abstraction, comparative analysis and generalization methods. At the same time, various studies conducted on the improvement of financial and investment mechanisms in the regions were considered.

Applied significance of the research means the development of more effective financial and investment mechanisms in the regions of the country in modern times.

Results of the research - in the conditions of modern transformations on the basis of the results obtained in the article it is envisaged to take measures to improve financial and investment mechanisms in the regions of the country.

Originality and scientific novelty of the study - are the substantiation of the need to improve financial and investment mechanisms in the regions of the country in the conditions of new challenges. At the same time, in order to accelerate socio-economic development of regions and maximize the improvement of financial and investment mechanisms in these processes, systemic research was conducted, problems were identified and a number of proposals based on scientific arguments were put forward.

Key words: Azerbaijan, regions, regional development, finance, investments, financial and investment mechanisms, improvement of financial and investment mechanisms, theoretical foundations of financial and investment mechanisms, problems of regional development.